# "Zərifə Əliyeva" gəmi-bərəsinin təsviri əks olunmuş poçt markası hazırlanıb

**Görkəmli oftalmoloq, akademik Zərifə Əliyevanın 100 illiyi münasibətilə onun adını daşıyan "Ro-Pax" tipli gəminin təsviri əks olunmuş poçt markası hazırlanıb.**




"Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC-dən AZƏRTAC-a bildirilib ki, qurumun təşəbbüsü ilə Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin tabeliyindəki "Azərpoçt" MMC-nin hazırladığı poçt markası Belarus Respublikasının "Bobruisk İnterated Printing House" çap evində işıq üzü görüb.

Yüksək keyfiyyətlə çap olunmuş poçt markasının ölçüsü 52x37 millimetrdir. Markanın nominal dəyəri 1 AZN-dir.

Bu markanın dövriyyəyə buraxılması dənizçilərin görkəmli oftalmoloqa sonsuz ehtiramının bariz nümunəsi olmaqla yanaşı, dünyada filateliyaya marağın yenidən artdığı bir vaxtda əsl kolleksiyaçılar üçün də böyük töhfədir.

Azərbaycan.- 2023.-29 aprel.- S.8.